# Səkkizinci İmamımız

# Hz. İmam Rza (ə)



İmam Rza (ə) 148-ci hicri-qəməri ilinin Zil-qədə ayında anadan olmuşdur. O həzrətin künyəsi Əbülhəsən, ləqəbi Rzadır və atası imam Kazim (ə) (183-cü hicri ilində) Bağdad zindanında şəhid olduqdan sonra otuz beş yaşında imamətə çatmışdır. İmam Rzanın (ə) vəfat tarixi haqda ixtilaf vardır; bəziləri 202-ci il, bəziləri isə 203-cü hicri ilində vəfat etdiyini qeyd etmişlər. Hansı ayda vəfat etdiyinə gəldikdə isə, Şeyx Kuleyni və Şeyx Müfid (hansı gündə olduğuna toxunmadan) Səfər ayında vəfat etdiyini söyləmişlər. Növbəxti o həzrətin vəfat gününü Səfər ayının sonuncu günü qeyd etmişdir. O həzrətin anası Xeyzəran adlanırdı. Bəzilərinin fikrincə, o, Novbə əhalisindən olmuşdur. Adı Ərva, ləqəbi isə Şəqradır. Bəziləri anasının adının Nəcmə, Tüktəm və künyəsinin Ümmül-Bənin olduğunu qeyd etmişlər.

İmam Rza (ə) 201-ci h.q. ilinə qədər Mədinədə yaşamış, həmin ilin Ramazan ayında Mərvə gedərək 203-cü ilin Səfər ayında şəhadətə yetirilmiş və Xorasanda (Məşhəd şəhərində) dəfn olunmuşdir.

## İMAM RZA (Ə) HARUNUN DÖVRÜNDƏ

183-cü hicri ilində imam Kazim (ə) Harunun əmri ilə Bağdad zindanında zəhərlənib şəhid olduqdan sonra imam Rza (ə) imam olduğu müddətin on ilini Harunun hakimiyyəti dövründə yaşamışdır. Bu müddət Harunun özbaşınalıq və azğınlıq mühiti olması ilə yanaşı, həm də imam Rzanın (ə) nisbətən azad yaşadığı və elmi-mədəni fəaliyyəti dövrü hesab olunur. Çünki Harun bu müddət ərzində o həzrətə toxunmamış və imam Rza (ə) açıq şəkildə fəaliyyət aparmışdır. Buna görə də, o həzrətin yetirdiyi şagirdlər, islami elmlər ocağında təlim etdiyi Quran həqiqətləri və İslam maarifi də, məhz bu dövrə təsadüf edir. Harunun təzyiqləri azaldaraq imam Rzanı (ə) nisbətən azad buraxmasının səbəbi, bəlkə də, onun imam Kazimi (ə) qətl etdiyini ört-basdır etməsi ilə əlaqədardır. Harun bu böyük cinayətin üstünü örtməyə çalışsa da, məsələnin üstü açılır və camaatda ona qarşı böyük nifrət hissi oyanır. Buna görə də, Harun bir təhər özünə bəraət qazandırmaq istəyirdi.

## VƏLİƏHDLİK MƏSƏLƏSİ

İmam Rza (ə) haqqında ən önəmli tarixi hadisə o həzrətin vəliəhdlik məsələsi idi. O həzrətin vəliəhdliyi ilə bağlı nəzərə çarpan məsələlər bunlardır: 1. Bu prosesdə Məmunun hədəfi; 2. Məmunun öz hədəfinə çatmamasında imam



Rzanın (ə) mövqeyi.

Məmunun zahiri rəftarlarından başa düşülür ki, o, bu prosesdə xüsusi hiyləgərliklə zahirdə öz xalis niyyətini  imam Rzaya (ə) məhəbbətini bildirmək istəmiş və xilafət məsələsində imam Əlinin (ə) nəslinin haqlı və layiqli olduğuna inandığını göstərməyə çalışmışdır.

Digər məsələ imam Rzanın (ə) xilafət təşkilatına gətirilməsi ilə o həzrətin fəaliyyətlərinin məhdudlaşdırılması idi.

Üçüncü məsələ isə budur ki, imam Rza (ə) Məmunun vəliəhdliyini qəbul etməklə, əzəmətini, məqam və mövqeyini azaldacaq, tərəfdarlarının yanında hörmətdən düşəcək, kimsə onu pak və müqəddəs bir şəxsiyyət kimi tanımayacaq və nəhayət, iddia etdiklərini puç biləcəkdilər.

Əbu Səlt Hərəvi də vəliəhdliyin imam Rzaya (ə) həvalə edilməsinin səbəbini belə açıqlayır: Məmun imam Rzanı (ə) vəliəhd seçməklə, camaata o həzrətin dünyapərəst və dünya malına hərisliyini sübut etmək və beləcə, mənəvi məqamını ləkələmək istəyirdi.

Həqiqət budur ki, camaat hər vaxt imam Əlinin (ə) övladlarına, məxsusən,  imamlara xüsusi ehtiram bəsləmiş və bu da xalqın onlara hədsiz dərəcədə etiqad və etimadına səbəb olmuşdu. İmamların spesifik xüsusiyyətləri hər kəsi onlara tərəf yönəltmiş, camaatın onlara qarşı itaətini zəruriləşdirmiş, həmçinin onların qarşısında təslimçilik ruhu yaratmışdı. Məmun çalışırdı ki, bu əzəmət və müqəddəsliyi aradan qaldırsın və ən azı, onların da başqaları kimi hakimiyyətə çatdıqları zaman zülm və fəsada düşəcəkləri fikrini camaata aşılasın.

Xilafət və siyasət insanların nəzərində bir növ çirkinlik sayıldığı üçün təqvalı və nəfsi pak insanın siyasətə qoşulması onun təsir və nüfuzunun azalmasına səbəb olacaqdı. İmam Rza (ə) kimi təqva və zahidlikdə öndər olan şəxsin Abbasilərin qurduğu xilafətlə əməkdaşlığı o həzrəti məqam və nəzərdən salacaqdı. Buna görə də, o həzrətə etiraz əlaməti olaraq deyirdilər: Dünyaya bağlanmadığınız halda, nə üçün Məmunun vəliəhdliyini qəbul etdiniz?  İmam (ə) buyurardı:  *Bu işə nə qədər nifrət etdiyimi yalnız Allah bilir.*

Məmunun bu hədəflərinin kənarında bəzi məsələlərə də toxuna bilərik. Məsələn, Məmun bu tədbiri ilə imam Rzanı (ə) istədiyi kimi idarə edə bilərdi. Bu istiqamətdə İmamın üzərində bir çox gözətçi qoymuşdu ki, onlar hər an İmamın vəziyyətini Məmuna çatdırırdılar.



## İMAM RZA (Ə) VƏ MƏMUN

Məmun imam Rzanı (ə) Mərvə gətirdikdən sonra müxtəlif alimlərin iştirakı ilə bir çox elmi yığıncaqlar təşkil edərdi və orada İmamla başqaları arasında bir çox müzakirələr baş verərdi. Bu yığıncaqlarda müzakirə edilən məsələlər, ümumiyyətlə, fiqhi və etiqadi məsələlərdən ibarət idi.

Bu işdə Məmunun məqsədi özünü elmsevər və ona əhəmiyyət verən kimi göstərmək idi. Amma Məmunun belə yığıncaqlar təşkil etməkdə məqsədi başqa idi. O, İmamı müzakirə mühitinə çəkməklə, adi camaatın Əhli-beyt imamları ilə bağlı  Onlar xüsusi elmlərə, o cümlədən, lədünni elmə sahibdirlər!  düşüncəsini aradan qaldırmaq istəyirdi.

Elmi şöhrət imam Rzanı (ə) şəhadətə yetirmək üçün ən önəmli dəlil sayıldı. Əhməd ibn Əli Ənsari deyir ki, Əbu Səltdən:  Məmun imam Rzanın (ə) öldürülməsinə necə razı oldu?  deyə soruşduqda belə cavab verdi:  ...Məmun vəliəhdliyi imam Rzaya (ə) həvalə etməklə, camaata onun dünyaya bağlandığını göstərmək və nəticədə, o həzrəti camaatın gözündən salmaq istəyirdi. Ancaq imam Rzanın (ə) rəftar və hərəkətləri onun Məmundan üstünlüyünü aşkar etdikdə, Məmun imam Rzanın (ə) elmi məqamını zədələmək və camaatın gözündən salmaq üçün bütün müsəlman sxolastiklərini İmamla elmi münazirəyə dəvət etdi. Amma İmamla həmsöhbət olan hər bir yəhudi və məsihi alimi İmama təslim olurdu. Nəticədə, camaat da deyirdi ki, imam Rza (ə) xilafətə Məmundan daha layiqdir. Məmunun casusları da hadisələri ona xəbər verirdilər. Beləcə, Məmun imam Rzanı (ə) zəhərləyərək öldürdü.


“Məşhəd” ziyarətgahı
İmam Rzanın (ə) məqbərəsi

## İMAM RZANIN (Ə) NÜMUNƏVİ ƏXLAQI

Tarixçilər imam Rzanın (ə) gözəl əxlaqına aid bir çox nümunələr qeyd etmişlər ki, biz də burada onlardan bir neçəsini qeyd edirik:

1. İbrahim ibn Abbas imam Rzanın (ə) gözəl əxlaqı barəsində belə nəql edir:  Mən imam Rzadan (ə) daha üstün bir şəxs görməmiş və olduğunu da kimsədən

eşitməmişəm. O, heç vaxt bir şəxsə zülm və cəfa etmədi, heç kəsin sözünü kəsmədi, bir möhtacı əliboş qaytarmadı, onunla bir yerdə oturanın qarşısında ayaqlarını uzatmadı, ondan əvvəl belini dayamadı, xidmətçiləri və kənizlərinə acı söz demədi, qəh-qəhə ilə gülmədi, süfrə başına öz xidmətçiləri ilə birlikdə otururdu. Gecələr az yatar və çox vaxt ehya saxlayardı (gecələri ibadətlə keçirərdi). Hamıya yaxşılıq edər və çoxlu sədəqə verərdi. Çox vaxt sədəqələri gecə paylayardı.

2. İbrahim ibn Abbas imam Rzanın (ə) gözəl əxlaqı barəsində belə nəql edir: İmam Rzanın (ə) belə buyurduğunu eşitdim: Yuxuda gördüm ki, qul azad edirəm. Hər dəfə belə yuxu görəndə qul azad edirdim. Buna görə də bütün qullarımı azad etdim. Sonra İmam (ə) qara bir qula işarə edib buyurdu: Əgər o, məni yaxşı adam bilirsə, bu, Rəsulullahla (s) qohumluğuma görə deyil, saleh əməllərimə görədir.

3 Bir şəxs imam Rzaya (ə) dedi: And olsun Allaha ki, yer üzündə səndən şərafətli bir şəxs yoxdur. İmam (ə) onun cavabında buyurdu: Təqva yer əhlini şərəfləndirir və Allaha itaət dəyər verir.
Həmçinin bir şəxs imam Rzaya (ə) Sən ən yaxşı adamsan dedikdə, İmam (ə) ona buyurdu: Məndən yaxşı o şəxsdir ki, mütəal Allahın əmrinə daha çox itaət etsin və daha çox təqvalı olsun. And olsun Allaha, bu ayə qüvvədən düşməyib:
Sizi xalqlara və qəbilələrə böldük ki, bir-birinizi tanıyasınız. Həqiqətən, Allahın yanında ən yaxşı olanınız ən çox təqvalı olanınızdır. ( Hücurat surəsi, ayə 13.)

4. İbadət imam Rzanın (ə) mənəviyyat və təqva ilə dolu həyatının böyük hissəsini təşkil edirdi. İmamın (ə) bəzi tərəfdarları deyir: Hər dəfə o həzrəti görəndə Allah-Taalanın bu kəlamı yadımıza düşərdi:
Onlar (təqvalılar) gecənin az bir hissəsini yatırdılar.
Şəbravi belə deyir: İmam Rza (ə) həmişə gecəni sübhə qədər namaz qılardı...

5. İmam (ə) süfrə başında oturanda səlahiyyətli işçilərindən tutmuş qapıçılarına qədər bütün xidmətçilərini çağırıb onlarla birlikdə yemək yeyərdi.
İmam (ə) bu rəftarı ilə insanları ayrıseçkilikdən çəkindirir və hamıya bərabər gözlə baxmağı vacib bilirdi.

## İMAM RZANIN (Ə) ŞƏHADƏTİ

Qeyd etdiklərimizdən aydın olur ki, Məmun imam Rzanı (ə) Mərvə gətirməklə uğurlu nəticələr əldə edə bilmədi. Hətta vəziyyətin bu minvalla davam etməsi onun üçün aradan qaldıra bilməyəcəyi ehtimali zərərlər belə doğuracaqdı. Xilafəti ələ almaq üçün öz qardaşını öldürməkdən çəkinməyən və özünün xilafət kürsüsünə oturması üçün zəhmətlərə qatlaşan vəzirini göz qırpmadan öldürən Məmun, indi də cani ata-babaları kimi xilafətini qorumaq məqsədilə imamlardan digər birini öldürmək fikrinə düşdü və nəhayət, hiyləyə əl ataraq

özünəməxsus siyasi oyunlar tətbiq etməklə imam Rzanı (ə) şəhadətə yetirdi və İmamın (ə) ölümündən kədərli olduğunu bildirdi. Belə ki, üç gün, üç gecə İmamın (ə) qəbrinin



üstündən ayrılmadı. Məmun elə ustalıqla öz rolunu ifa etdi ki, hətta bəzi din alimləri İmamın (ə) Məmun tərəfindən şəhadətə yetirilmədiyini qəbul etdi. İrbili həmin alimlərdən biridir. Halbuki imam Rza (ə) haqqında ən geniş kitab yazan Şeyx Səduq başda olmaqla, alimlərin əksəriyyəti bir çox rəvayətlərə istinad edərək imam Rzanın (ə) Məmun tərəfindən şəhadətə yetirildiyini təsdiq etmişlər.

# İMAM RZADAN (Ə) HƏDİSLƏR

***** *“Mömin üç xislətə sahib olmayınca mömin ola bilməz: 1. Rəbbinin bir adətinə sahib olsun; 2. Peyğəmbərinin (s) bir adətinə sahib olsun; 3. İmamının bir adətinə sahib olsun. Amma Rəbbinin adəti sirri qorumaq və faş etməmək, Peyğəmbərin adəti insanlarla gözəl və mülayim davranmaq, imamın adəti isə yoxsulluq və çətinlik zamanı səbirli olmaqdır.”***

***** *“Allah-Taalanın dərgahında vacib əməllərdən sonra möminin qəlbini sevindirməkdən dəyərli əməl yoxdur.”***

***** *“Hər kim bir möminin qəmini aradan qaldırsa, Allah-Taala qiyamət günü onun qəlbinin qəmini aradan qaldırar.”***

***** *“Müsəlman şəxs on xislətə sahib olmayınca ağlı kamilləşməz: 1. Ondan xeyirxahlıq gözlənilər; 2. Onun pisliyi və şərindən amanda qalınar; 3. O, başqalarının az yaxşılıqlarını çox hesab edər; 4. Özünün çox yaxşılıqlarını az hesab edər; 5. Başqalarının istək və diləyindən yorul-maz; 6. Ömrü boyunca elm öyrənməkdən yorulmaz; 7. Allaha ehtiyacı digər ehtiyaclardan üstün tutar; 8. Allah dərgahında kiçik olmağı Allah düşməninin yanında böyük olmaqdan üstün tutar; 9. Tanınmaz qalmağı məşhurlaşmaqdan üstün tutar.” Sonra imam Rza (ə) əlavə edərək buyurdu: “Onuncu xislət daha çox əhəmiyyət kəsb edir.” İmamdan (ə) “Onuncu xislət hansıdır?” – deyə soruşduqda, İmam (ə) buyurdu: “Gördüyü hər bir kəs haqqında belə düşünsün və desin: “O, məndən yaxşı və təqvalıdır.”***

***** *“Kiçik günahlar insanı böyük günahlara doğru sürükləyir. Hər kim kiçik günaha görə Allahdan qorxmazsa, böyük günaha görə də qorxmaz.”***

Gürcüstan Müsəlmanları İdarəsi